**BMqT eksperti: "İqlim miqrasiyası" məsələsi COP29-da iqlim dəyişikliyinə uyğunlaşma kontekstində müzakirə olunub**

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) nümayəndələri Azərbaycanda keçirilən COP29 çərçivəsində "iqlim maliyyələşməsi"nin prioritet istiqamətlərinin müəyyən edilməsi zamanı "iqlim miqrasiyası" probleminin nəzərə alınması məsələsini müzakirə ediblər.

AZƏRTAC xəbər verir ki, bu barədə BMqT eksperti İleana Sinziana Puşkas Bakıda keçirilən iqlim sammitinin yekunlarını şərh edərkən türkiyəli jurnalistlərə bildirib.

Onun sözlərinə görə, "iqlim miqrasiyası"nın miqyası artır ki, bu da məsələnin iqlim dəyişikliklərinə uyğunlaşma üzrə addımlarının qlobal gündəmə mütləq daxil edilməsini tələb edir.

"Mövzu xüsusən Bakıda BMT-nin Yaşıl İqlim Fondunun nümayəndələri ilə müzakirə olunub", - deyən ekspert miqrasiyanın faciə və ağrı ilə əlaqələndirilə bilməyəcəyini, əksinə dövlətlərin həmrəylik və uğurlu addımlar sahəsinə çevrilməli olduğunu vurğulayıb.

BMqT eksperti qeyd edib ki, təşkilatın hesablamalarına görə, 2050-ci ilə qədər dünyada 44 milyondan 113 milyona qədər insan iqlim böhranının nəticələrinə görə dövlətlər daxilində yaşayış yerini dəyişəcək. "Ən pis ssenaridə, "iqlim miqrantlarının" sayı 216 milyon nəfərə çata bilər", - deyən Puşkas iqlim dəyişikliyi səbəbindən təkcə keçən il dünyada 26 milyon insanın evlərini tərk etdiyini xatırladıb.

Bununla bağlı o, Fici dövlətini misal gətirərək bildirib ki, orada dəniz səviyyəsinin qalxması fonunda sahilyanı ərazilərin sakinləri balıqçılıqdan imtina edərək ölkəyə köçüb heyvandarlıq və kənd təsərrüfatı ilə məşğul olmağa başlayıblar.

Onun sözlərinə görə, iqlim böhranı uzunmüddətli perspektivdə milli təhlükəsizliyə təhdid miqyası ala bilər. "Miqrantları qəbul edən ölkələr yeni çağırışlara hazır olmalıdır. Təbii fəlakət təhlükələri artır, həm də təkcə zəif inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə bağlı deyil. İspaniyada baş verən daşqınlar buna əyani sübutdur", - deyə o qeyd edib.

Ekspert əlavə edib ki, yaşıl iqtisadiyyata ədalətli keçid üçün dövlətlərə yüksəkixtisaslı işçi qüvvəsi lazımdır və bu da maliyyə investisiyaları tələb edəcək.

**Ramin Abdullayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**
**2024, 4 dekabr**